

# Vaqifin əmanəti, "Yuğ"un zəmanəti...

*(rejissor Gümrah Ömər haqqında)*

**Məncə, gərginlikdə olan bu günkü teatrımızın gələcəyi bizim təsəvvür etmədiyimiz qədər uğurlu olacaq. Zatən aktual olan teatr və onun problemləri sonucda inkişafa səbəb olacağına şübhə etmirik. Və bu qədər əmin olmağımızın digər səbəbləri və qəhrəmanları da var. Qəhrəmanlardan biri gənc rejissuranın nümayəndəsi Gümrah Ömər...**

Görkəmli teatr rejissoru və bilicisi, rəhmətlik Vaqif İbrahimoğlu onu Yuğ teatrının özündən sonra estafeti daşıyan ən layiqli siması olduğunu dəfələrlə bəyan etmişdi. Gümrah Ömər bu mənada Vaqif İbrahimoğlunun müasir Azərbaycan teatrına bir əmanətidir.

23 iyul gənc rejissorun, hal-hazırda "Yuğ" teatrının baş rejissoru Gümrah Ömərin doğum günüdür. Gümrah Ömər müasir Azərbaycan psixosof teatrının gənc rejissorudur. Müasir dövrdə ideyalar sisteminin geniş vüsət aldığı, fiziki hərəkət metodunun nəzəri praktikadan kənarlaşdığı, mətnin-sözün hərəkətə qalib gəldiyi bir teatr məkanında - Vaqif İbrahimoğlu tərəfindən yaradılan sufi-poetik Yuğ teatrının əsas çözüm nöqtələrindən biri olan gənc rejissor Gümrah Ömər yaradıcılığında daima Vaqif İbrahimoğlu poetikasına və ekzistensional sufi estetikasına geniş yer verir.

Aktyoru obrazda necə əritməli? Obrazı öz təhtəlşüurundan necə azad etməli? Rolun daxili-psixoloji aləmini necə idarə etməli? Uzun illər boyu qarşısına qoyduğu bu suallara cavab axtararaq özünün psixotexnikasını inkişaf etdirən rejissor öz tamaşalarında - səhnə yaradıcılığında insanın dərketmə mərhələsini, fövqəlqanunlara tabe olmasını, kəpənək kimi öz daxilindən qopub başqa bir "mən"ə bürünməsini qabardır.

Məsələ burasındadır ki, insan duyğularını səhnədən anlamaq asan deyil, bizə mane olan hüdudlar var. Hərəkət isə maddi olduğundan onu görmək, hətta "toxunmaq" belə olur. İnsanın hərəkətlər üzərindən addımlayıb duyğuların zirvəsinə yüksəlməsi üçün cismani və ruhsal aləminin vəhdət təşkil etməsi gərəkdir. Gümrah Ömər məhz bu vəhdəti əsas götürür və səhnələşdirdiyi hər bir tamaşada bu nüansa diqqət edir. Rejissorun qəhrəmanları səhnədə, gözlərimiz önündə inkişaf edir, öz məhrəmlərindən qurtulur, yeni və azad insan olaraq bu həyata atılırlar. Çox zaman Gümrah Ömər qəhrəmanlarının yenilənməsini, sıfırdan varolmasını izlədikcə ünlü rejissor Klimin "sıfır ritualı"nı xatırlamamaq mümkün deyil. Gümrah Ömər zamanın və məkanın, zahir olan hər şeyin aktyorun, daha doğrusu obrazın-rolun batinində əriməsi, aktyorun tamamilə yeni bir mərhələyə, yeni bir məkana keçməsi prosesini ən incə detallarla bizlərə təqdim edir.

Dediklərimi nümunəyə çevirmək məqsədilə rejissorun tamaşalarından birinə müraciət etmək istərdim.

Xatirinizdədirsə, ölkəmizdə Axundzadə ili qeyd olunurdu. Bununla əlaqədar keçirilən Axundzadə festivalının ən dərin təhlili məhz rejissor Gümrah Ömərin təqdimatında oldu. Bizə aydın oldu ki, Axundzadənin bizə məlum olan bu beş komediyasından başqa yeni - XXI əsr komediyası gerçək imiş. Və bu da rejissorun səhnə təhlili olan - "Naməlum Axundzadə"...

Yuğ dövlət teatrının səhnəsində vaqe olan yeni komediyanın (yəni bir neçə komediyanın cəmi) tamaşasında rejissor Axundzadənin komediyalarına yeni bir rəng, yeni rejissor fikri, yeni bir səhnə yozumu gətirərək naməlum tamaşanın seyrini gerçəkləşdirmiş oldu. İbrahimxəlil kimyagərin "iksir" xəyallarını, Müsyö Jordanın "cadu" gerçəklərini, özünəməxsus kadrlarla - səhnə mizanları ilə həyata keçirən müasir rejissor quruluşu heç kəsin xəyallarında daha doğrusu, təxəyyülündə yaratmadığı bir tamaşaya imza atdı. Yuğ teatrı-Gümrah Ömər rejissurası-Axundzadə dramaturji xəzinəsi-teatrın dəyərli aktyorlarında ibarət məlum heyət elə bir naməlum tamaşa yaratdılar ki, onun formulunu, dəqiq tezislərlə, xətasız açım ilə söyləmək olduqca çətin və imkansızdır. Naməlum? Yəqin ki, aydındır.

Rejissorun Viktor Hüqonun "Mariya Tüdor" tarixi dramının əsasında Akademik Milli Dram Teatrının səhnəsində quruluş verdiyi "Qadın məhəbbəti" tamaşanın konsepsiyasında da müəllifin əsərində olduğu kimi həqiqi tarixin sosial və siyasi mübarizələri demək olar ki, təsvir olunmur. Bunun əvəzində sevgi konflikti, əsas melodramatik peripetiya ön plana keçirilir. "Qadın məhəbbəti" tamaşasının janrını "fəal romantizm" adlandırmaq olar ki, bu da rejissor Gümrah Ömərin təyin etdiyi "şekspirsayağı dram" janrına çox yaxındır. Bu janr həyati təsdiq, optimizm və yüksək cəmiyyət idealları uğrunda fəal mübarizəyə çağırışdır. Gümrah Ömər tamaşanın istər ideya və stilistik baxımdan, istər tarixi planda düşünülmüş, düzgün həllini tapmışdır. Tamaşaçılar səhnədən XVI əsr İngiltərənin qəddar və tutqun atmosferini duyurlar. Və rejissor tamaşada tamamilə mənsub olduğu estetikaya yad - tam dramatik formada oyun yaradır ki, bu da düşünürəm ki, Gümrah Ömərin özü üçündə yenilik olur.

Gümrah Ömərin müasir gürcü dramaturqu Gela Dumbadzenin "Gecə qonağı" pyesinin motivləri əsasında Akademik Milli Dram Teatrının kiçik səhnəsində qoyduğu "Məqam" monotamaşası insanın keçmişi ilə, öz hiss və həyacanları ilə, ən əsası insanın özü-özü ilə apardığı varolma mücadələsinin gözəl nümunəsidir. Rejissor bəşər övladının qərarvermə məqamını və bu məqamdakı acizliyini cəsarət, intihar pərdəsi altında necə gizlətməyə çalışdığını incəliklə bizə göstərir. Bəli, intihar acizlərin, yaşamaqdan qorxanların seçdiyi bir yoldur. Səhvləri ilə, doğruları ilə hesab verməkdən qorxanların...

Gümrah Ömərin fəaliyyəti onun özünəməxsus rejissurasından kənara çıxmır, bunu qətiyyətlə demək olar. Məhz bu sərhədləri dəqiq bilmək, gənc rejissorun bu qədər inamlı olması onun Yuğ teatrına baş rejissor təyin olunmasını qanunauyğun hadisəyə çevirir. Məhz bu forma və estetikanın başında Vaqif İbrahimoğlunun layiq bildiyi insan olmalı idi. Beləliklə, Gümrah Ömər bizim üçün dəyərli olan Yuğ teatrının və poetikasının sanki uzun ömürlü olacağına bir zəmanətdir.

Qısa mətnlə gənc rejissorumuzu təbrik edirik, yaradıcılığınız uğurla davam etsin...





■ Niyaz Cəfərov
*teatrşünas*